## İdman

# Şahmat yarışı

Tüntül kənd tam orta məktəbində Azərbaycan Xalq Cümhuriyyətinin 100 münasibətilə məktəblərarası şahmat yarışı keçirilmişdir. Yarışda Tüntül, Nohurqışlaq, Mirzəbəyli Yengicə kənd, Vəndam qəsəbə 2 nömrəli məktəblərin, eləcə də Oğuz rayonu Qumlaq kənd məktəbinin şagirdlərdən ibarət şahmat komandaları iştirak etmişdir.

Tədbiri giriş sözü ilə Tüntül kənd tam orta məktəbin direktoru Telman Abdulxalıqov açaraq bildirmişdir ki, bu il müsəlman şərqində ilk demokratik, dünyəvi dövlət olan Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu münasibətlə 2018-ci ili "Azərbaycan Xalq Cumhuriyyəti ili" elan etmişdir. Bu möhtəşəm yubileylə əlaqədar ölkəmizdə müxtəlif tədbirlər keçirilir. Bu gün məktəbimizdə keçirilən şahmat yarışı da Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuşdur.

Azərbaycanın Dövlət Himni səsləndikdən sonra Tüntül kənd tam orta məktəbinin şahmat müəllimi Ərrəhman Abdulkərimov yarışın keçirilmə qaydallarını izah etmiş, püşkatma olmuşdur.

Gərgin keçən yarışın nəticələrinə görə Oğuz rayonunun Qumlaq kənd məktəbinin komandası birinci yerə, Tüntül kənd məktəbin komandası ikinci yerə, Yengicə kənd məktəbinin komandası isə üçüncü yerə layiq görülmüşlər. Qaliblər və fəal iştirakçılar diplom və Fəxri Fərmanlarla mükafatlandırılmışdır.

Qumlaq kənd məktəbinin direktoru Fəxrəddin Abbasov, Qəbələ Rayon Təhsil Şöbəsinin əməkdaşı İbrahim Faxlulov yarışda fəal iştiraklarına görə gənc şahmatçılara uğurlar arzulayıblar.

Tüntül məktəbliləri gənc şahmatçıları Novruz süfrəsinə qonaq ediblər.

**"Qəbələ"**

# Uşaq və ailələrə dəstək mərkəzində bayram tədbiri

***Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində Azərbaycan xalqının ən gözəl və qədim bayramlarından biri olan Novruz bayramı münüsibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçılarına qədim bayramın adət-ənənələrindən, onun milli dəyərlərindən danışılmışdır. Mərasimdə qədim inanclara görə kainatın dörd ünsürdən–su, od, yel və torpaqdan ibarət olduğu, Novruz çərşənbələrinin mahiyyəti qeyd olunub.***

Hər il bu bayramın Azərbaycanın bütün bölgələrində böyük təntənə ilə qeyd olunduğu diqqətə çatdırılıb.

Tədbirdə Novruzun personajları olan Kosa, Keçəl, Bahar qız tamaşaçıları əyləndirmiş, uşaqlara bayram hədiyyələri təqdim etmiş, onlara maraqlı anlar yaşatmışlar.

Bayram şənliyinə qoşulan uşaqlar yallı sədaları altında rəqs etmiş, tonqalın üstündən hoppanmışlar.

Şənlik bayram gəzintisi ilə davam etdirilmişdir.

**Hökumə İSMAYILOVA,**
**uşaq və ailələrə dəstək mərkəzinin işçisi.**

# Qəsəbədə Novruz şənliyi

***Novruz bayramı münasibətilə Nic qəsəbəsində silsilə tədbirlər keçirilmişdir. Nic qəsəbə icra nümayəndəliyinin və bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən ümumqəsəbə bayram şənliyində qəsəbədə yaşayan bütün millətlərin və etnik qrupların nümayəndələri iştirak etmişlər.***

Tədbirdə Nic qəsəbə 3 nömrəli tam orta məktəbin müəllimi Şahid İslamov «Azərbaycanlıların və udilərin adət və ənənələrində oxşarlıqlar və Novruzun qarşılanması ənənələri» mövzusunda mühazirə oxumuşdur.

Mühazirəçi Novruz mərasiminin əsas adətləri və ilaxır çərşənbələrin mahiyyəti haqqında məlumat vermiş, bu bayramın qəsəbədə yaşayan azərbaycanlıların, udilərin , ləzgilərin , və digərlərinin milli adət-ənənələri içərisində qədim dövrlərdən indiyədək mühüm yer tutduğunu qeyd etmişdir.

Udi xristian kilsəsinin keşişi Rafik Danakari, təqaüdçü müəllim Əhməd Məmmədli, qəsəbə mədəniyyət mərkəzinin rəhbəri Vitali Koçarxoy, müəllimlərdən Əvəz Əhmədov, Volod Gülmalov və başqaları çıxış edərək qəsəbə sakinlərini Novruz bayramı münasibətilə təbrik etmiş, tədbirin təşkilatçılarına təşəkkürlərini bildirmişlər.

Tədbirdə qəsəbədə yaşayan bütün millətlərin və etnik qrupların mətbəxlərini əks etdirən bayram süfrəsi açılmışdır.

Bayram şənliyində Azərbaycan, udi, ləzgi dillərində mahnılar səslənmiş, milli rəqslər nümayiş olunmuşdur. Udi-xristian kilsəsində bayram şamları yandırılmışdır.

**Əhməd MƏMMƏDLİ,**
**«Qəbələ»nin müxbir postunun rəhbəri.**

# Kənd təsərrüfatı məhsullarının satışı yarmarkaları davam edir

***Qəbələdə kənd təsərrüfatı məhsullarının satış yarmarkaları davam edib. Xüsusilə bayramqabağı və bayram günlərində buraya gələnlərin sayı daha çox olub. Şəhər sakinləri satış yarmarkanın işindən razı qalıblar. Çünki keyfiyyəti ilə seçilən yerli məhsullar burada bazardan daha ucuz qiymətə satılıb.***



Yarmarkaya məhsul gətirən torpaq mülkiyyətçilərinə də hərtərəfli şərait yaradılıb. Məhsullar bazar qiymətindən 15-20 faiz ucuz təklif olunub. Süni qiymət artımının qarşısının alınması məqsədilə təşkil olunmuş yarmarkalarda bolluq yaradılıb. Sahibkarlar tərəfindən yarmarkaya 16 tondan çox müxtəlif kənd təsərrüfatı məhsulları çıxarılıb.

Rayon kənd təsərrüfatı idarəsindən müxbirimizə verilən məlumata görə əhalinin tələbatını yerli, ekoloji cəhətdən təmiz məhsullarla təmin edən yarmarkalarda önümüzdəki həftələrdə əhaliyə daha geniş çeşiddə kənd təsərrüfatı məhsulları təqdim olunacaq.

**"Qəbələ"**

# Bayram günlərində rayonumuza 20 mindən artıq turist gəlib

*Novruz bayramı günlərində Qəbələyə minlərlə yerli və xarici turist gəlib və turist axını səbəbindən otellərin hamısında otaqlar dolu olub. Hətta rayonumuza gələn qonaqlar kirayə verilən boş kənd evləri tapmaqda çətinlik çəkiblər. Şəhərimizdə təşkil edilən əyləncəli bayram tədbirləri, tamaşa və konsertlər, satış yarmarkaları turistləri daha çox cəlb edib.*

*Otel və restoran xidmətlərinə görə qiymətlər münasib olub. Ailəvi gələn və bir neçə gün burada qalıb dincəlmək istəyən turistlər əsasən meşə və çay kənarlarındakı kotteclərdə və kirayə verilən kənd evlərində istirahətə üstünlük veriblər.*

*Turistlər istirahət etməklə yanaşı, Qəbələnin qədim tarixi, müasir şəhərsalma mədəniyyəti və ləziz mətbəxi ilə də yaxından tanış olmaq imkanı qazanıblar.*

**"Qəbələ"**

# 2017-ci il ərzində Qəbələ rayonunun sosial-iqtisadi inkişafı haqqında məlumat

(Əvvəli ötən nömrəmizdə).

Məhsul və xidmətlərin 81,9 faizi istehsal sahələrinin, 18,1 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

İstehsal və xidmətlərin 36.8 faizi tikinti-quraşdırma, 14,6 faizi ticarət və xidmətlər sahəsində, 15,2 faizi sənayedə, 31,2 faizi kənd təsərrüfatı və balıqçılıq təsərrüfatında, 1,7 faizi nəqliyyat və anbar təsərrüfatında, 0,5 faizi isə informasiya və rabitə xidmətləri sahəsində olmuşdur.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sənayedə 29,9 faiz, kənd təsərrüfatı və balıqçılıqda 3,0 faiz, ticarət və xidmət sahəsində 16,5 faiz, nəqliyyat və anbar təsərrüfatında 4,9 faiz, informasiya və rabitədə 4,8 faiz, tikintidə isə 3,3 faiz artım müşahidə edilmişdir.

**Kənd təsərrüfatı**

Rayonun iqtisadiyyatında taxılçılıq, meyvəçilik və heyvandarlıq aparıcı rol oynayır.

Keçən il 21148 hektar sahədən 67917 ton taxıl toplanmışdır. Eləcə də ötən il 12260 ton kartof, 7601 ton tərəvəz, 13527 ton meyvə, 3065 ton qarğıdalı, 116 ton bostan məhsulları, 97 ton tütün, 2,8 ton barama və 2065 ton üzüm istehsal olunmuşdur.

Həmçinin 6264 ton (diri çəkidə) ət, 40313 ton süd, 10411 min ədəd yumurta, 412 ton yun istehsal edilmişdir. 2016-cü ilə nisbətən ət istehsalı 67 ton və ya 1,1 faiz, yun istehsalı 51,0 ton və ya 11,0 faiz az, yumurta istehsalı 10 min ədəd və ya 1,0 faiz, süd istehsalı isə 1458,0 ton və ya 4,4 faiz artmışdır.

Təsərrüfatlarda 46326 baş iri buynuzlu mal-qara, o cümlədən 23183 baş inək və camış, 190737 baş qoyun və keçi, 1115 baş donuz və 390252 baş quş olmuşdur.

**Sənaye**

Rayonun sənayesinin əsasən meyvə şirələrinin və qida məhsullarının istehsalı, elektrik enerjisinin, qazın və buxarın bölüşdürülməsi, suyun yığılması və paylanması sahələri təşkil edir.

2017-ci ildə sənayedə fəaliyyət göstərən müəssisələr tərəfindən 33707 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 29,9 faiz çox sənaye məhsulu, 25636 min manatlıq qida məhsulu istehsal edilmiş və 8071 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 76,0 faiz təşkil etmişdir.

İl ərzində sənaye müəssisələrində çalışan 1397 nəfərin orta aylıq nominal əmək haqqı 336 manat olmuşdur. Əvvəlki illə müqayisədə bu 0,1 faiz çox deməkdir.

**Tikinti**

Rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 82690,0 min manat, (17806,0 min manatı dövlət mülkiyyəti, 64884,0 min manatı isə qeyri dövlət mülkiyyəti) tikinti quraşdırma işlərinin həcmi isə 81225,0 min manat (17465,0 min manatı dövlət mülkiyyəti, 63760,0 min manatı qeyri dövlət mülkiyyəti ) təşkil etmişdir.

Həmçinin ümumi sahəsi 16968 kvadrat metr olan 205 fərdi ev tikilib istifadəyə verilmişdir. İl ərzində 71484,3 min manatlıq əsas fondlar istifadəyə verilmiş bunun da 6600,3 min manatını dövlət, 64884,0 min manatını isə qeyri dövlət mülkiyyəti təşkil etmişdir.

(Ardı gələn nömrəmizdə).

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Uludaş kənd sakini **Aslanov Nəzir Hacıbala oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 296 A nömrəli, JN seriyalı 296 F nömrəli, JN seriyalı 296 G nömrəli (kodları 40615038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr** itdiyi üçün etibarsız sayılır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsi tərəfindən Yenikənd kənd sakini **Babayev Fərid Novruz oğluna** 4 yanvar 2010-cu il tarixdə verilmiş AO seriyalı, 1150414 nömrəli **hərbi bilet** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Rəhimov Məmmədkərim İsmayıl oğluna** verilmiş JN seriyalı 618 nömrəli **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə İmamlı kənd sakini **İbrahimova Şəqibə Midi qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı ) 011 F nömrəli (kod 40613038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Prokurorluğunun kollektivi iş yoldaşları **Şahin Hümbətova** həyat yoldaşı

**RAHİLƏ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu, Əlövsət Aləmmədov Mehrəli Mehrəliyev və Eldar Quliyev **Rasim Yaqubova** əzizi

**İLQARIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ şəhər 2 nömrəli uşaq bağçasının kollektivi iş yoldaşları **Aynurə Hümbətovaya** anası

**RAHİLƏ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndikdərini bildirir və dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1799